Ədəbiyyat QƏZETİ

№3 23 yanvar 2026-cı il 7

## *Nadejda İSMAYILOVA*



Hörmətli Nadejda xanım!

Sizi - tanınmış yazıçı-publisist, Əməkdar jurnalisti yubileyiniz münasibətilə təbrik edirik.

Siz Aşqabad şəhərində dünyaya gəlmisiniz. 1962-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini, 1968-ci ildə Ümumittifaq Kinematoqrafiya İnstitutunun ssenari və kinoşünaslıq fakültəsini bitirmisiniz. Əmək fəaliyyətinə 1959-cu ildə Azərbaycan Teleradiosunda başlamısınız. 1975-1984-cü illərdə "Azərbaycanfilm" Kinostudiyasında baş redaktor müavini vəzifəsində, 1985-1987-ci illərdə "Azərtelefilm" Yaradıcılıq Birliyində işləmisiniz. Geniş tamaşaçı auditoriyası qazanmış "Dalğa", "Həftə-plyus", "TV Kuryer" televiziya proqramlarının müəllifi və aparıcısı olmusunuz. Neçə-neçə məşhur filmin ssenari müəllifi, redaktorusunuz. İstedadlı jurnalist, peşəkar kino xadimi kimi Azərbaycan mədəniyyəti qarşısında xidmətləriniz diqqətəlayiqdir.

Hörmətli Nadejda xanım!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun, sağlam ömür, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**